*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    9 avqust 2017-ci il    № 59 (2176)    Qiyməti 25 qəpik


## "Dəniz Kuboku-2017" müsabiqəsində artilleriya atışları keçirilib



*"Dəniz Kuboku-2017" müsabiqəsi çərçivəsində "Üzən minaya artilleriya atışı" üzrə 3-cü epizod icra edilib.*

Beynəlxalq hakimlər briqadasının qərarına görə bu epizodun yerinə yetirilməsinin nəticələrinə əsasən birinci yerə 50 xalla Rusiyanın "Qrad Sviyajsk" kiçik raket gəmisinin ekipajı, ikinci yerə 48 xalla Azərbaycanın "G-124" gözətçi gəmisinin ekipajı, üçüncü yerə 46 xalla Qazaxıstanın "Sarıarka" raket artilleriya gəmisinin ekipajı, dördüncü yerə 44 xalla İranın "Cövşən" raket katerinin ekipajı layiq görülüb.

"Dəniz Kuboku-2017" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri dəniz hədəflərinə artilleriya atışları da yerinə yetiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqənin şərtlərinə görə döyüş atışları 3,5 kilometr məsafədən icra olunub və tapşırıqların yerinə yetirilməsi faktı beynəlxalq hakimlər briqadası tərəfindən təsdiq edilib.

"Dəniz Kuboku-2017" müsabiqəsinin "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə ikinci mərhələsində Təlim-məşq kompleksində "Gəmiyə suyun daxil olmasına qarşı mübarizə yarışı" üzrə 4-cü epizod icra edilib.

Epizodun icrası ilə bağlı yekun nəticələrə dair beynəlxalq hakimlər kollegiyasının qərarına əsasən Azərbaycan HDQ-nin "G-124" gözətçi gəmisinin ekipajı ən yüksək nəticə göstərərək birinci yerə layiq görülüb. Rusiya HDD-nın "Qrad Sviyajsk" kiçik raket gəmisinin ekipajı ikinci, İran HDQ-nin "Cövşən" raket katerinin ekipajı üçüncü, Qazaxıstan HDQ-nin "Sarıarka" raket artilleriya gəmisinin ekipajı isə dördüncü yerdə qərarlaşıblar.

# Zirehli döyüş avtomobillərinin təmiri və texniki xidmət mərkəzinin açılışı olub



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığına əsasən Silahlı Qüvvələrin inkişaf etdirilməsi məqsədilə görülən fəaliyyətlər davam etdirilir.*

Müdafiə Nazirliyinin rəhbərliyi müxtəlif təyinatlı təkərli zirehli döyüş vasitələrinin təmiri və texniki xidmət mərkəzinin açılışında iştirak edib.

Məruzə olunub ki, mərkəzdə Silahlı Qüvvələrin silahlanmasında olan döyüş texnikasının zirehli korpusu, avtomobil üzərindəki avadanlıq və silah sistemlərinə texniki qulluq göstəriləcək.

Mərkəzdə mütəxəssislər tərəfindən sürücülər, tuşlayıcılar, operatorlar və digər ixtisaslar üzrə şəxsi heyətin hazırlanması üçün bütün şərait yaradılıb.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov mərkəzdəki silah anbarı, laboratoriya, digər xidməti və inzibati otaqlarla tanış olub.

Mərkəzin fəaliyyəti ilə bağlı ətraflı brifinq təqdim olunduqdan sonra Müdafiə naziri onun fəaliyyətinin və imkanlarının artırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# “Biz düşməndən güclüyük”

*Yol boyu ətrafa göz gəzdirirəm. Ətraf yam-yaşıldır. Dar və çətin keçilən yollar bizi bölmənin dayaq məntəqəsinə aparır.*

Bu da bölmənin yerləşdiyi dayaq məntəqəsi. Ərazidəki səliqə-sahman, şəxsi heyətin nizam-intizamı xidmətin düzgün təşkilindən xəbər verir. Ərazidə "Qarabağı düşməndən azad edək", "Düşmən bizim torpağımızda ölümə məhkumdur", "Ya Qarabağ, ya ölüm" kimi plakatlar bölmədə mənəvi-psixoloji hazırlıq işinin düzgün aparıldığını və şəxsi heyətin yüksək döyüş ruhunda xidmət etdiyini göstərir. Bölmə komandiri əvəzi kapitan Orxan Əlimərdanov düşmənin atəşkəsi vaxtaşırı pozduğunu bildirir. "Qarşı tərəf atəşkəsi tez-tez pozur. Postlarda ayıq-sayıq dayanan, qorxmaz, cəsur əsgərlərimiz onları cavab atəşi ilə susdurur. Onlardan qat-qat güclü olduğumuzu yaxşı bilən hər bir əsgərimiz, düşməni məhv etməyə daim hazırdır.

Biz düşmənə gücümüzü aprel döyüşlərində göstərdik. Ali Baş Komandanın əmri ilə döyüşməyə tam hazırıq".

Bölmənin döyüş postlarından birindəyik. Baş leytenant Mehdi Əsgərov xidmətin uğurla davam etdiyini, qarşıdakı düşmənin daim nəzarətdə olduğunu deyir.

- Tabeliyimdəki əsgərlər nizam-intizamlı, vətənpərvər və bacarıqlı döyüşçülərdir. Döyüş növbəsində ayıq-sayıq xidmət apararaq, düşmən mövqelərini nəzarətdə saxlayırlar. Belə vətənpərvər əsgərlərlə bir yerdə xidmət etməkdən qürur duyuram. Onlara hərbi biliklər öyrədir, hər birinin torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşə atılmağa hazır olan döyüşçülər kimi formalaşması üçün əlimdən gələni edirəm.

Taqım komandirinin müavini gizir Ramin Rüstəmovla səngərə daxil oluruq.

Düşməni nəzarətdə saxlayan əsgərlərlə söhbətləşirəm. Əsgər Vüsal Zeynalov Ağdam rayonunda qaçqınlar şəhərciyində dünyaya göz açıb. Əslən Laçındandır. "Ata-baba torpağım olan Laçın mən hələ dünyaya gəlməmişdən öncə işğal olunub. Mən kəndimizi ancaq şəkillərdə görmüşəm. Valideynlərim mənə keçmiş xatirələrindən danışanda kövrəlirlər. Hətta bu yaxınlarda atamla danışanda hiss etdim ki, yenə kövrəlib. Nə



olduğunu soruşanda mənə Cocuq-Mərcanlı kəndinə köçən ailələrdən danışdı".

...Aprel döyüşlərini xatırlayıram. Azərbaycan əsgəri düşməni məğlubiyyətə uğratdı. Torpaqlarımızın bir qismini işğaldan azad etdi. Vüsal kimi neçə gəncin doğma el-oba, torpaq həsrətinə son qoydu...

... Əsgər Dəyanət Yusubovun "Növbədə olduğum zaman heç bir hadisə baş verməyib" məruzəsi məni xəyaldan ayırır. 1 ildən artıq xidmət edən əsgər Elnur Ağayev xidmətə Bakı şəhərindən çağırılıb. Atıcı əsgər döyüş növbəsində ayıq-sayıq dayandığını deyir.

- Üzərimə düşən məsuliyyəti yaxşı dərk edərək, xidmətimə ciddi yanaşıram. Bu vəzifənin öhdəsindən bacarıqla gəlmək üçün əlimdən gələni edirəm. Xidmətə gəldiyim ilk gündən komandirlərimin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirməyə çalışıram. Torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə atılmağa hazıram.

Səngərdə irəlilədikcə bu yerlərdə xidmət edən əsgərlərlə həmsöhbət olmağın sevincini yaşayıram. Onları tanıdıqca vətənpərvərliklərini, Vətən sevgilərini, düşmənə nifrətini onların öz dilindən eşitdikcə qürurlanıram.

Röyal Əliyev hərbi xidmətə Ağcabədi rayonundan çağırılıb. 10 aydır xidmət edən əsgər hərbi xidmətdə yadda qalan günlərindən, əsgər dostlarından söz açır:

- Bir gənc üçün əsgər olmaq ən böyük sevincdir. Əsgəri forma geyinirsən, torpaqlarımızın keşiyində dayanırsan. Hərbi andiçmə günü yadda qalan günlərdən biridir. Bir əlim silahda, bir əlim əsgər yoldaşımın çiynində Vətənə sədaqət andi içdiyim o gün yaddaşımdan silinməz. Təntənəli marşla keçiddən sonra, atam əlini çiynimə qoyub "Səninlə fəxr edirəm, oğul, unutma, bütün Azərbaycan xalqı siz əsgərlərlə fəxr edir!" dedi. Atamın sözlərini eşitdikdə, qürurlu baxışlarını gördükdə anladım ki, həyatda əsgər olmaq qədər qürurverici hiss yoxdur.

... "Gözlər qəlbin aynasıdır" deyirlər. Röyalın ürəyindəki Vətən sevgisi, vətənpərvərlik hissi gözlərindən oxunur.

İstirahət növbəsində olan əsgərlərlə - Dəyanət Yusubov və Çingiz Xəlilzadə ilə söhbətləşirəm. Onlar da "Əlimiz tətikdə, gözümüz nişangahda düşmən qarşısında ayıq-sayıq dayanmışıq" - deyirlər.

Bu səngərlərdən - Samidlərin, Fəridlərin, Mübarizlərin, Çingizlərin davamçıları olan əsgərlərimizdən Ali Baş Komandanımızın "Üçrəngli bayrağımız tezliklə Şuşada, Xankəndidə, işğal olunmuş digər torpaqlarda da dalğalanacaq" inamıyla ayrılırıq...

**Baş leytenant Məhəmməd NƏSİRLİ "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# Ermənistan ordusundakı mənfi halların gizlədilməsi üçün əsgər valideynləri hədələnir

*Ermənistan ordusunda qeydə alınan sayca ən çox hadisələrdən biri də hərbi qulluqçular arasında nizamnamədən kənar münasibətlər zəminində baş verən cinayət hallarıdır.*

AZƏRTAC xəbər verir ki, belə insidentlər zamanı xəsarət alan hərbi qulluqçuların valideynlərinin Ermənistan Müdafiə Nazirliyinə dəfələrlə müraciət etmələrinə baxmayaraq, hadisələrin qarşısını almaq mümkün olmur.

Bu günlərdə Ağdərədə yerləşən işğalçı ordunun hərbi hissələrindən birində iki hərbçi arasında mübahisə baş verib. Təhqirlərə və fiziki təzyiqlərə dözməyən Qalustyan soyadlı əsgər gecə saatlarında, şəxsi heyət istirahət edən vaxt, qaynar suyu yatdığı yerdə onu incidən digər əsgərin üzərinə töküb. Hələlik adı gizlədilən həmin hərbçi baş-boyun hissəsindən müxtəlif dərəcəli ağır yanıqlar aldığından təcili hospitala yerləşdirilib.

Son günlər nizamnamədən kənar münasibətlər zəminində baş verən növbəti hadisə zamanı bir neçə erməni hərbçisi müxtəlif dərəcəli bədən xəsarətləri ilə Xankəndidəki hərbi hospitala yerləşdirilib.

Belə ki, Madagizdə yerləşən hərbi hissələrdən birində xidmət edən iki zabit həddən artıq spirtli içki qəbul edəndən sonra heç bir əsas olmadan əsgərləri döyməyə başlayıb. Hadisə zamanı fiziki təzyiqlərə məruz qalan Razmik Poqosyan, Armen Yeğizaryan, Mxitar Hayriyan, Samvel Manukyan, Karapet Torosyan adlı gənc əsgərlər ifadə vermək üçün Xankəndidəki baş hərbi istintaq idarəsinə aparılıblar.

Daha bir hadisə zamanı "qalx" komandasını yerinə yetirməkdən imtina edən Yervand Qasparyan adlı əsgərin Suvaryan soyadlı manqa komandiri tərəfindən döyülməsi olub.

Uşaqlarına qarşı bu cür münasibətdən hiddətlənən valideynləri komandanlığa şikayət ediblər. Lakin yerli komandirlərin hədə-qorxularından sonra əsgərin valideynləri gələcəkdə də övladlarına qarşı bu cür qəddarlığın baş verə biləcəyindən ehtiyat edərək şikayətlərini geri götürmək məcburiyyətində qalıblar.

# "Azərbaycan komandaları Ermənistan komandalarından hər növdə üstündür

*Azərbaycan komandaları Ermənistan komandalarından hər növdə üstündür. Bu fikri AZƏRTAC-a açıqlamasında "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının ssenari müəllifi və quruluşçu rejissoru, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bildirib.*



A.Qurbani deyib: "III Beynəlxalq Ordu Oyunlarının başa çatmasına bir neçə gün qalır. Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən, qeyri-formal olaraq hərbi olimpiada adlandırılan bu möhtəşəm oyunlar ildən-ilə ətrafına daha çox iştirakçı dövlətləri cəlb edir. Müsabiqə iştirakçılarının sayı daha da çoxalır. Təkcə builki yarışlarda 30-a yaxın ölkənin 3500 nəfərdən çox iştirakçısı öz güclərini sınayırlar. Yarışlar 5 ölkədə - Rusiyada, Belarusda, Azərbaycanda, Qazaxıstanda və Çinin 22 poliqonunda keçirilir. Bu il Azərbaycan 5 növdə beynəlxalq yarışlara qoşulub - Tank biatlonu, Səhra mətbəxi, Snayper həddi, Artilleriya atəşinin ustaları və "Dəniz Kuboku-2017" müsabiqəsi.

Vətənimizdən uzaqlarda keçirilən yarışlarda iştirak edən hərbçilərimizin çıxışlarını diqqətlə izləyirik. Azərbaycan komandaları Qazaxıstanda artilleriya atəşinin ustaları və snayper həddi üzrə yarışırlar. Moskva ətrafında isə hərbçilərimiz tank biatlonu və səhra mətbəxi üzrə müsabiqələrə qoşulublar. "Dəniz Kuboku-2017 isə Azərbaycanda keçirilir.

Ümumiyyətlə, Qazaxıstanda və Rusiyada keçirilən yarışlar barədə onu deyə bilərəm ki, Azərbaycan hərbçiləri yarışlarda bütün növlər üzrə Ermənistanı tam üstələyib. Bu, bizi sevindirir. Ən böyük uğurumuz odur ki, Azərbaycan komandaları Ermənistan komandalarından hər növdə üstündür.

Bizim tankçılarımız da, kulinarlarımız da, snayperlərimiz də, artilleriyaçılarımız da Ermənistanı üstələyiblər. Yarışlar davam edir.

Xüsusi olaraq qeyd etməliyəm ki, bu peşəkarlıq təkcə yarışlarda deyil, eyni zamanda, döyüş meydanında da, təlimlərdə də məharətlə nümayiş olunur. Dəfələrlə bunun şahidi olmuşuq. Bütün bu uğurlar onu göstərir ki, Silahlı Qüvvələrimizdə peşəkarlığa, döyüş hazırlığının səviyyəsinə daim diqqətlə yanaşılır və bu istiqamətdə işlər keyfiyyət baxımından daim yüksələn istiqamətdə davam etdirilir".

# Azərbaycan snayperləri yarışların növbəti mərhələsinə yüksəliblər



Avqustun 4-də "Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçirilən "Snayper həddi" müsabiqəsində snayper cütlükləri yarışında iştirak edən Azərbaycan snayperləri uğur qazanaraq növbəti mərhələyə keçiblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan snayperləri ilə yanaşı Rusiya, Belarus, Çin, Qazaxıstan, Özbəkistan, Banqladeş və Monqolustan snayperləri də növbəti mərhələyə yüksəliblər.

Ermənistan, İran, Yunanıstan, Venesuela, Qırğızıstan, Zimbabve, Hindistan, Tailand və Cənubi Afrika Respublikasının snayperləri zəif nəticə göstərərək yarışları tərk ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## "Səhra mətbəxi" müsabiqəsində Azərbaycanın hərbi aşpazları liderlər sırasındadır

"Beynəlxalq Ordu Oyunları-2017" yarışları çərçivəsində Moskva yaxınlığındakı Alabino poliqonunda keçirilən "Səhra mətbəxi" müsabiqəsində iştirak edən Azərbaycanın hərbi aşpazları liderlər sırasına daxil olublar.

2-ci mərhələnin yekun nəticələrinə görə Rusiya və Belarusdan sonra 3-cü yeri tutan Azərbaycan hərbi aşpazları 3-cü mərhələdə Belarus nümayəndələrini arxada qoyaraq 2-ci yerə yüksəliblər.

Milli mətbəximizi yüksək səviyyədə təqdim edən hərbi aşpazlarımızın yarışlardakı uğurlu iştirakı davam edir.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 9-da Ağdam rayonu Sarıcalı kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik və onun səhra köməkçisi Mixail Olaru keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Yoviç və Martin Şuster keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***8 avqust 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Naxçıvan xüsusi təyinatlıları Dağ təlim mərkəzində

*Dağ təlim mərkəzində Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən digər güc strukturlarının xüsusi təyinatlı, kəşfiyyat və xilasetmə bölmələrinin toplantısı keçirilib.*



Dağ relyefinin xüsusiyyətləri qoşunların döyüş əməliyyatlarına böyük təsir göstərir. Yüksək fiziki hazırlıqla və qəti hərəkətlə döyüşdə müvəffəqiyyət qazanmaq, dağ ərazisinin xüsusiyyətlərindən bacarıqla istifadə etmək, dağ manelərini keçmək məqsədilə toplantıda şəxsi heyətə müxtəlif üsullarla dağ yamaclarında aşağı və yuxarıya hərəkət etmə üsulları məşq etdirilib.

Toplantıya cəlb edilmiş şəxsi heyətə çətin dağ şəraitində hərəkət etməklə yanaşı, döyüş aparma üsulları, yaralıların və əmlakın təxliyyəsi qaydaları öyrədilib.

Xüsusi təyinatlı, kəşfiyyat və xilasetmə bölmələrinin şəxsi heyətinin cəlb edildiyi toplantıda su manelərinin müxtəlif üsullarla dəf edilməsi üzrə məşğələlər keçirilib.



Toplantıda şəxsi heyətə dağçılıq hazırlığından müxtəlif dağ ləvazimatlarının istifadə qaydaları əyani olaraq göstərilib. Təbii ki, bütün bunlar ilin istənilən fəslində, ən çətin iqlim və relyef şəraitində qoşunların fəaliyyətinə müsbət təsir göstərir.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**fotolar**
**əsgər**
**Rasim İSMAYILLININDIR**

AZƏRBAYCAN ORDUSU

# Ekstremal şəraitlərdə jurnalistika - nəzəriyyə təcrübələrlə tamamlanır

*Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin birgə yeni layihəsinə start verildi.*




Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Mətbuat Şurasının üzvü Azər Həsrət bildirdi ki, kurs, müəyyən mənada, Azərbaycan kütləvi informasiya vasitələri üçün təşkil olunan keçən ilki layihənin davamıdır: "Layihə ekstremal şəraitdə işləyən jurnalistlərin özünü qoruması, düzgün informasiya alıb cəmiyyətə çatdırılmasının öyrədilməsi məqsədi daşıyır. Jurnalistlərin bu istiqamətdə təcrübə toplaması olduqca vacibdir. Layihə müddətində onlar hərbi jurnalistikanın incəliklərinə yiyələnəcəklər. Bu həm də mediada milli təhlükəsizliyə xələl gətirən informasiyaların yayılmasının qarşısının alınmasıdır.

"Konflikt jurnalistikası məktəbi" layihəsinin rəhbəri Əlisəfa Mehdiyev qeyd etdi ki, keçiriləcək təlimlər hərbi sahəni işıqlandırmağın hüquqi-təcrübi-psixoloji normalarına, ekstremal jurnalistikanın qaydalar bazasının formalaşmasına, cəbhədən xəbərlər yayan jurnalistlərin peşəkarlığının artırılmasına yönələcək: "Ekstremal jurnalist təhlükəli vəziyyətlərdə - döyüş yerində, cəbhədə, terror hadisəsində - publisist materiallardan istifadə etməklə həm Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığına, həm də müharibə şəraitində əhalinin milli ruhunun yüksəldilməsinə xidmət etməlidir. Belə bir tədbiri dəstəkləyən Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürümü bildirirəm.

Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin zabiti polkovnik Abas Bakıxanov çıxışında bildirdi ki, müharibə başa çatmadığından ekstremal vəziyyət saxlanılır, jurnalistlərin riskləri də artır. Bu baxımdan, ekstremal jurnalist hüquqi-təcrübi-psixoloji normativləri tam qavramağı bacarmalıdır. Təlimin praktiki hissəsi avqust ayının 1-dən etibarən poliqon şəraitində baş tutacaq. Müdafiə Nazirliyinin poliqonunda təşkil ediləcək praktiki təlimdə isə döyüş meydanına oxşar şərait yaradılacaq və burada qarşıya çıxa biləcək təhlükəli vəziyyətlərdə davranış normaları, müşahidə aparmaq və informasiya toplamaq qaydaları öyrəniləcək.



"Bu tip məsələləri həll etmək məqsədilə təmsil olunduğum təşkilat indiyə qədərki fəaliyyətində belə bir qaydalar bazasının formalaşması üçün xeyli hazırlıq işləri görüb, "ekstremal jurnalistika"nın nəzəri və təcrübi məsələlərini kifayət qədər araşdırıb, beynəlxalq təcrübələrin tətbiqi, çatışmazlıqların həlli variantlarını müəyyənləşdirib, reportyor, operator və müxbirlərə səngər təlimi kursu keçib, təlimin bitkin modelini yaradıb, ekstremal jurnalistlər üçün müntəxəbat bazası olan yaddaş kitabı yazıb, nəşr etdirib, - deyə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev bildirdi.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bildirdi ki, ötən il cəbhədə baş verən hadisələr zamanı ictimaiyyətə yoxlanılmamış informasiyaların təqdim edilməsi və bəzi jurnalistlərin fəaliyyəti qənaətbəxş olmayıb. Professor jurnalistlərin ekstremal şəraitdə davranış və informasiya verilməsi qaydalarından, cəbhəyanı bölgədə özünümüdafiə məsələlərindən bəhs etdi. Dövlətin, millətin, Vətənin mənafeyini qorumağın müqəddəs borc olduğunu diqqətə çatdırdı.

"Azərbaycan Ordusu" qəzetinin əməkdaşı əməkdar jurnalist Rəşid Hüseynov dedi ki, media cəmiyyətin inkişafı və formalaşmasında, Ordu quruculuğunda mühüm rol oynayır. Təqdim olunan layihə hərbi jurnalistika sahəsinə dair bütün məqamları əhatə edəcək. Media nümayəndələrinin hərbi jurnalistikaya meyl etməsi sevindiricidir. Lakin jurnalistlər hərbi sahədən yazarkən diqqətli olmalı, peşə və vətəndaşlıq borcuna vicdanla yanaşmalıdır. İnanıram ki, bu layihə Azərbaycanda hərbi sahədən yazan jurnalistlərimizin peşəkarlığının artırılmasına töhfə verəcək.

BDU-nun Sosial Elmlər və Psixologiya fakültəsinin dekanı Rəşid Cabbarlı sahəsinə uyğun olaraq ekstremal vəziyyətlərdə fəaliyyət göstərəcək jurnalistlərə psixoloji məqamlar və fobiya haqda geniş məlumat verdi.

Digər çıxış edənlər də ordu quruculuğu sahəsində Müdafiə Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirdi. Vurğuladılar ki, Azərbaycanın bir sıra informasiya agentlikləri dünyanın ən uzaq nöqtələrinə xəbər ötürmək imkanına malikdir. Çıxışlarda o da qeyd edildi ki, ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev jurnalistlərə hər zaman diqqət və qayğı göstərir. Azərbaycan jurnalistikası hər zaman ordunun yanındadır. Sonda xüsusi olaraq vurğulanıb ki, sosial şəbəkələr, müstəqil jurnalistlər informasiyaların yayılması məsuliyyətini dərk etməlidirlər. Belə layihələr hərbi jurnalistikaya marağın artması baxımından faydalı olacaq.

Avqust ayının 1-dən etibarən "Ekstremal jurnalistlərin təcrübə poliqonu təlimləri"nə start verildi. 22 nəfərdən ibarət jurnalistə "N" hərbi hissəsində daxili nizam qaydaları izah edildi, jurnalistlər hərbi hissənin ərazisi ilə yaxından tanış oldular. Burada əsgər və zabit heyəti üçün yaradılmış şəraitin dövlətimizin orduya göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu gördülər.



Növbəti gün təlim poliqonunda heyət orduda komanda üzrə vəzifələr, reportyorların işləməli olduğu komandir heyəti, motoatıcı silahların taktiki-texniki xüsusiyyətləri, silahlarla davranma qaydaları, son dövrün artilleriya, uzaq mənzilli ballistik silahları haqda geniş məlumat aldı, eyni zamanda qoşunların hücum əməliyyatı zamanı dayanan "Jurnalist döyüş zamanı necə etməlidir ki, həm öz işini görsün, həm də hərbçiyə mane olmasın?", "Operator və ya jurnalist səngərdə necə hərəkət etməlidir?", "Atəş altında düşmən gülləsinə tuş gəlməmək üçün jurnalist özünə necə düzgün mövqe tutmalıdır?" kimi suallar peşəkar hərbçilər tərəfindən cavablandırıldı.

Günümüz hərbi qulluqçularımızın döyüş hazırlığı, hücum əməliyyatlarının planlanması metodlarını öyrənməklə davam etdi. Qarşıya çıxa biləcək müxtəlif maneələrin dəf edilməsi qaydalarını göstərən, hərbi işin bəzi özəlliklərini bizlərə açıqlayan komandir heyəti silahların təyinatı barədə də ətraflı məlumat verdilər. İstehkamçı qurğuları ilə də tanış olduq. Minaların növləri, onların partlama zamanı təsir dairəsi və s. haqda məlumatlar aldıq.

Təlimlərin ən yaddaqalan hissəsindən biri də zirehli texnika ilə yaxından tanışlığımız oldu. Tankın üstündə və içində olmaqla müəyyən məsafəni qət etdik. Tankın altından keçdik. Kalaşnikov silahından 100 və 150 metrdə yerləşdirilən hədəflərə atəş açdıq. Bir sözlə, həftə ərzində ekstremal situasiyaya maksimum dərəcədə uyğunlaşmağa çalışdıq.

Növbəti günlərdə ekstremal vəziyyətlərdə necə davranmaq lazım olduğunu əvvəlcədən məlumat verən hərbçilər jurnalistlərə hər cür şəraitdə sağ qalmaq metodlarını öyrətdilər.

Təlimin üçüncü günüdü.

Səhər saat 8:00-da heyət zirehli texnika ilə tanışlıq, eyni zamanda texnikanın içindən, üstündən, altından çəkiliş aparmaq və reportyorun hansı şəraitdə döyüşən zonada zirehli texnikadan yararlana bilməsini öyrənmək məqsədilə təlim mərkəzində nəzərdə tutulmuş mövqedə təlim keçən zabit, texnika və imzaladığımız ümumi təhlükəsizlik qaydaları haqqında məlumat verdikdən sonra 3-4 nəfər olmaq şərtilə tankla həyata keçirilən reydlərdə yaxından iştirak etdik.

(Ardı 5-ci səhifədə)

# Ekstremal şəraitlərdə jurnalistika - nəzəriyyə təcrübələrlə tamamlanır

(Əvvəli 4-cü səhifədə)

Tank vahiməli uğultu ilə hərəkətə başladı. Tankın hərəkəti zamanı tank komandirinə əmr gəldi - düşmənin artilleriya atəşindən yayın. Bu anda tankın sağa və sola hərəkəti, tırtılların arasından qalxan toz-duman, eyni zamanda tüstü pərdəsindən istifadə etməklə döyüş texnikasının maskalanması nəticəsində yaranan



əsrarəngiz mənzərə ömrü boyu yadımdan çıxmayacaq. Hisslərin təsiri altında elə bil toz-dumanı görmürdüm. Həmin anda elə hiss etdim ki, işğal olunan torpaqlarımızı azad etməyə gedirik. Məni içimdə sözlə ifadə etməyə çətinlik çəkdiyim bir hiss bürüdü. Elə bildim ki, tank heyəti ilə birlikdə Şuşanı, Ağdamı, Xankəndini və digər torpaqlarımızı azad etməyə gedirik. Mənə elə gəldi ki, həmin torpaqlardayıq, tankın üzərindəki üçrəngli bayrağımızı Cıdır düzündə dalğalandırırıq, Qələbə bayramını qeyd edirik. Ali Baş Komandanımız Qələbə paradını qəbul edir. Elə bu tankın üstündə mən də xalqımıza qələbə sevincini bəxş edən oğullarımızla birlikdə həmin paradda iştirak edirəm. Oğullarımızın silahla gördüyü işi mən sözlə tamamlayır, Qələbə günündən reportaj hazırlayıram. Zirehli texnikanı idarə edən hərbi qulluqçuların gözlərindən oxuyuram ki, onlar da eyni hissləri yaşayır.

Növbəti heyət zirehli texnikanın üzərinə qalxsın, komandası məni ayrılmaq istəmədiyim hisslərdən ayırdı. Zirehli texnika ilə müxtəlif reydlər keçirildikdən sonra nəzərdə tutulan ikinci təlim yerinə yaxınlaşdıq.

Təlim keçən zabit, mühəndis istehkam qurğuları haqda məlumat verdi, minalardan və əldə hazırlanmış partlayıcı qurğulardan qorunma xüsusiyyətlərini başa saldı. Heyət təlim mərkəzində yaradılmış mühəndis şəhərciyində maneələrin növləri, qurulma üsulları, minalanmış sahələrin sxemlərinin hazırlanması qaydası, sxemlərin tərkib hissəsi, minaların basdırılma üsulları və təhlükəsizlik qaydaları ilə yaxından tanış oldu. Təlim keçən suallara cavab verdi. İzah edildi ki, mühəndis maneələri 2 növə ayrılır: partlayan və partlamayan maneələr. Öyrəndik ki, partlamayan maneələr öz növbəsində süni və təbii maneələrdən ibarətdir. Partlayan maneələr tank əleyhinə, piyada əleyhinə və qarışıq maneələr olmaqla 3 növə ayrılır. Partlayan maneələr şahmat qaydasında, şablon qaydada və qarışıq üsulla basdırılır.

Müasir mina maneələrini dəf etmə üsullarından söhbət açıldığı zaman xüsusi diqqət "Pomins-2" maneəaçma qurğusuna yetirildi. İzah olundu ki, bu gurğu vasitəsi ilə 50 sm enində və 50 m dərinlikdə partlama üsulu ilə piyadalar üçün keçid açılır.

"UR-67" və "UR-77" maneəaçma qurğusu haqda verilən məlumat xüsusi maraqla dinlənildi. Təlim keçən zabit bildirdi ki, modifikasiyasından asılı olaraq piyada və tank əleyhinə minalanmış sahələrdə 115 m uzunluqda və 8 m enində partlama üsulu ilə keçid açılır və qoşunlarımızın maneəsiz hərəkəti təmin edilir.

Mühəndis şəhərciyində yaradılmış yüksək şəraitlə yaxından tanış olduq və təşkil olunmuş hər bir tədris məşğələsini diqqətlə dinlədik, minaların ağırlığını, quruluşunu, döyüş vəziyyətinə gətirilməsini, zərərvurma qabiliyyətini öyrəndik, ekstremal şəraitdə jurnalistin əməl etməli olduğu təhlükəsizlik qaydalarını mənimsədik.

Növbəti günün təlimində döyüşə hazırlıq və döyüşün gedişi zamanı müşahidə üsulları izah edildi. Jurnalistlərə döyüş gedən zaman informasiya toplayan müxbirin, reportyorun düzgün davranış normaları izah edildi. Təqlid (imitasiya) edilmiş döyüş səhnəsi. Şərti düşmən mövqeyi müəyyənləşdirildi. Jurnalistlər 3 mövqedə qərarlaşdı: hücum edənlər, müdafiə olunanlar, kənardan müşahidə edənlər.

Təqlidi həyata keçirmək üçün nəzərdə tutulmuş şəxsi heyət taktiki vəziyyətə uyğun olaraq seçilmiş taktiki fəaliyyəti (hücum döyüşünü) reallaşdırmaq üçün qüvvə və vasitələrin nisbətini yaratdı. Ərazinin xüsusiyyətləri, hava şəraiti və taktiki şərait nəzərə alınmaqla şərti düşmənə qarşı 3 qat üstünlük yaradıldı.

Düşmən haqqında məlumatın dolğun olması üçün onun hansı motoatıcı alayın taqımı olması, bundan əvvəl döyüşlərdə iştirak edib-etməməsi, itkilərə məruz qalıb-qalmaması, hal-hazırda komplektləşdirilməsi faizi, müdafiəsinin dayanıqlı olub-olmaması, dairəvi müdafiəyə hazır olub-olmaması, aşkar olunmuş komanda-müşahidə məntəqəsi və atəş vasitələri, yaxın dərinlikdə olan ehtiyatların köməyə gəlib-gəlməməsi kimi məlumatların verilməsi həyata keçirildi. Nəhayət, döyüş başladı. Şərti düşmən mövqeyi hücumla ələ keçirildi. Döyüş prosesinin birbaşa iştirakçısı olan jurnalistlərin fəaliyyətinə ümumi nəzarət olundu. Döyüşdən sonra jurnalistlər döyüş haqda məlumat almaq funksiyasını həyata keçirdi. Sonda ümumi proses mütəxəssislər tərəfindən qiymətləndirildi.

Maraq doğuran digər təlim günün ikinci yarısında həyata keçirildi. Təlim zamanı ekstremal vəziyyətdə təhlükəsizlik tədbirləri və döyüş fəaliyyəti rayonunda hərəkət qaydaları izah olundu. Qeyd edildi ki, düşməndən alınan mövqelərdə çox ehtiyatlı davranmaq tələb olunur. Çünki mövqeni itirməklə barışmayan düşmən



özündən sonra sürpriz maneələr qoyur. Məqsəd də hərbi qulluqçularımızın itkisinə nail olmaqdır. İstənilən hər bir əşya - qadın çantası, uşaq oyuncağı və s. real təhlükə mənbəyi kimi qəbul edilməlidir. Öyrəndik ki, müharibə şəraitində, eyni zamanda istənilən ekstremal şəraitdə ehtiyatla davranmaq əsas şərtlərdən biridir.

Həmin gün otaq şəraitində seminarlarla, qızğın müzakirələrlə davam etdi. Növbəti günün təlim məntəqəsi elan olunanda həmkarlarımın sevinci açıq-aşkar hiss olundu. Səfərimiz xüsusi təyinatlı funksiyanı üzərinə götürən bir hərbi hissəyə - "N" hərbi hissəsinə idi.

"N" hərbi hissəsinə gəlməkdə məqsəd müşahidə qabiliyyəti, müşahidə mövqeyinin seçilməsi, snayperdən və yaxud gözlənilməz hücumdan qorunmaq təcrübələrini mənimsəmək idi. Burada yüksəklikdən (qayadan, hasardan, damdan) kəndirlə və ya kəndirsiz enmə təcrübələri, maneələrdən keçmə üsulları da izlənildi.

Təlim keçən zabit ilkin olaraq jurnalist heyətinin diqqətinə müşahidə qaydalarını çatdırdı. Bildirdi ki, müşahidə kəşfiyyatın ən geniş yayılmış üsuludur və ilin istənilən vaxtında təşkil edilir. Müşahidəçilər biri baş müşahidəçi olmaqla 2-3 nəfərdən ibarət olur. Onu da öyrəndik ki, müşahidə məntəqəsi düşmənin hava hücumundan, artilleriya silahlarından düşmənin atəş açdığı yerlərdən uzaqda olmalıdır. Müşahidəni apararkən müşahidəçilər təhlükəsizlik qaydalarına və gizliliyə riayət etməlidir. Durduğun mövqedə siqaret çəkmək, işıq yandırmaq, qışqırmaq, xüsusilə qadağandır. Bir sözlə, düşmənə səs və görüntü işarəsi verilməməlidir, müşahidələr sol və sağ tərəfdən aparılmalıdır. Onu da bildik ki, müşahidə məntəqəsi yüksəklikdə qurulur və müşahidəçiyə üç zona verilir: yaxın zona, orta zona, uzaq zona. Yaxın zona 400 metr, orta zona 400-800 metr, uzaq zona 800-dən 5-6 km-ə qədər olur. Jurnalistlər müşahidəçilərin xəritəsi, müşahidə planşetləri və müşahidə jurnalı ilə tanış oldular.

Digər təlimatçı düşmən mövqeyinə hücumun yollarını izah etdi və şərti düşmən mövqeyinə hücum başladı. İlk olaraq qrup komandiri hücum üçün ayrılan şəxsi heyətə əvvəlcə xəritə üzərində planın detallarını izah etdi və döyüş əmrini verdi. Sonra qrup komandiri düşmən mühafizəsini məhvetmə, atəş təminat və hücum yarımqruplarını müəyyənləşdirdi, onların iş bölgüsünü apardı. Ayrılan yarımqruplar hərəkətə keçdi. Bir manqadan ibarət şəxsi heyət qarışıq minalanmış sahələri təmizləyə-təmizləyə irəlilədi. Gizliliyə və səssizliyə əməl edən heyət düşmən mövqeyinə çatdı. Tüstü şakaşından və atəş yardımından istifadə etməklə şərti düşmənin blindajına daxil oldu. Ərazi təmizləndikdən sonra fişəng vasitəsilə tapşırığın başa çatması haqqında siqnal verildi. Heyət təzliklə ərazini tərk etdi.

Növbəti təlim zamanı yüksəklikdən (qayadan, hasardan, damdan) kəndirlə və ya kəndirsiz enmə təcrübələri, maneələrdən keçmə üsulları nümayiş etdirildi. Sonra jurnalistlər də bu maneələrdən keçdilər.

Pilotsuz uçuş aparatları ilə tanış olduq. İlk olaraq PUA-lar haqqında geniş məlumat verildi, praktiki olaraq PUA-ların uçuşu nümayiş olundu.

Təlim davam edir...




**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçuların Gəncə şəhərinin tarixi yerlərinə ekskursiyası təşkil olunub



Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə cəbhənin ön xəttində xidmət edən hərbi qulluqçuların Gəncə şəhərinin tarixi yerlərinə ekskursiyası təşkil edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 3 gün davam edən ekskursiyalar zamanı hərbi qulluqçular Gəncə şəhərinin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, incəsənət abidələri haqqında məlumatlandırılıblar.

Gəncə Qala qapıları, Nizami Gəncəvi məqbərəsi və Nizami Gəncəvi Yaradıcılıq muzeyi, İsrafil Məmmədovun ev



muzeyi və məzarı, Məhsəti Gəncəvi adına mərkəz, Cavad xan küçəsi və Cavad xan məqbərəsi, Şeyx Zamanovlar mülkü, Şah Abbas məscidi, Çökək Hamam, Xan Bağı, Xalq Cümhuriyyəti binası və Şirəli bəy bürcü ilə tanış olan hərbçilər xidmət yerlərinə xoş təəssüratlarla qayıdıblar.

Bu səpkidə keçirilən tədbirlər hərbi hissələrlə ictimaiyyət arasında əlaqələrin daha da genişləndirilməsi məqsədi daşıyır.

# Ermənistanda vəziyyət: daxildə böhran, xarici siyasətdə iflas

*Son zamanlar erməni KİV-i əcaib məntiqlə rəsmi İrəvanın yeritdiyi siyasəti izah etməyə çalışır. Əsasən Azərbaycanla bağlı məsələləri qabartmağa cəhdlər edilir. Onlar bir tərəfdən Azərbaycan Ordusunun endirdiyi güclü cavab zərbələri haqqında yanlış informasiyalar yayır, digər tərəfdən isə Kremli Bakıya yeni silah satmaqda ittiham etməyə çalışırlar. Hər iki istiqamətdə real arqument irəli sürə bilməyən Ermənistan adəti üzrə şər-böhtana əl atır. Aydın görünür ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrindən dəfələrlə güclüdür. Ermənilərin hər bir təxribatçı hərəkətinə güclü cavab verilir. Bununla yanaşı, Azərbaycan öz müdafiə qabiliyyətini durmadan artırır. O cümlədən Rusiyadan müasir silahlar almaqda davam edir. İki ölkənin siyasi liderləri də müntəzəm əlaqə saxlayırlar. Onlar regional və qlobal miqyasda aktual olan geosiyasi problemləri müzakirə edir, birgə çıxış yolları axtarırlar. Bunlara İrəvan çox qısqanc reaksiya verməkdədir. Lakin reallığı gizlətmək mümkün deyil - Ermənistanda sosial, siyasi, iqtisadi və mənəvi-əxlaqi böhran daha da dərinləşir.*

## Güclü ordu: rəsmi Bakının uğurları

Azərbaycan diplomatiyasının fəallığı Ermənistan hakimiyyətini çaşqınlıq vəziyyətinə salmaqdadır. Ədalətsiz, haqsız və qərəzli mövqedə olduğundan Ermənistan rəhbərliyi müxtəlif uydurma fikirlər ortaya atır. Erməni ekspertlər olduqca süni məntiqlə rəsmi İrəvanın mövqeyini izah etməyə cəhdlər göstərir. Lakin reallıq hər şeyi öz yerinə qoyur. Böhtan havaya atılmış boş güllə kimi hədəfə çatmır.

Son vaxtlar ermənilər iki məsələdən bərk narahat olduqlarını büruzə verirlər. Onlardan birincisi Azərbaycan Ordusunun düşmənin hər bir təxribatına sərt və güclü cavab verməsi ilə əlaqəlidir. İkincisi isə Azərbaycan rəhbərliyinin müstəqil və təmkinli xarici siyasəti sayəsində Bakının Moskva ilə münasibətləri uğurla inkişaf etdirməsilə bağlıdır. Hər iki məsələ faktiki olaraq erməni diplomatiyası və hərbi siyasətinin iflasını açıq surətdə göstərir.

Ermənistan rəhbərliyi Azərbaycan Ordusunun cavab zərbələrini təhrif etməyə çalışır. Sarkisyanın cinayətkar oliqarx rejiminin nəzarətində olan KİV orqanları bunun üçün gah erməni siyasi liderlərin dolaşıq geosiyasi düşüncələrini qabartmağa çalışır, gah da "İsgəndər" raketlərini ortaya atırlar. Azərbaycan Müdafiə naziri "İsgəndər"lərə qarşı kifayət qədər səmərəli silahların olduğunu bəyan etdikdən sonra isə ermənilər sözün həqiqi mənasında deməyə söz tapmırlar. Çünki öz ordularındakı bərbad vəziyyəti artıq gizlədə bilmirlər.

Dalbadal erməni əsgərlərinin intiharı, öz silah yoldaşlarını qətlə yetirmələri, fərarilik, müxtəlif cinayətləri törətmələri KİV-də geniş işıqlandırılır.

Bunları ört-basdır etmək üçün sosial şəbəkələrdə süni bir ünvan yaradıb, Azərbaycan Ordusuna qarşı təxribatçı informasiyalar yaymaq kimi fəndləri də boşa çıxdı. Azərbaycan Müdafiə Nazirliyi bu barədə geniş informasiya verərək, "Tofiq İbrahimov" adlı ünvanın ermənilərə aidliyini göstərdi. Bununla informasiya sahəsində İrəvan ciddi bir zərbə almış oldu. Məlum oldu ki, Azərbaycan Silahlı Qüvvələri barədə yazılan yalanların böyük əksəriyyəti Ermənistan xüsusi xidmət orqanlarının mətbəxində hazırlanır. Onlara inanmağın heç bir əsası yoxdur.

Rəsmi İrəvanın ağlını çaşdıran digər məqam Rusiya ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlığın getdikcə inkişaf etməsi ilə əlaqəlidir. Moskva Bakıya müasir silahlar satır. Beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilən bu ticarət üçüncü ölkəyə qarşı yönəlməyib.

Azərbaycan öz müdafiə qabiliyyətini artırır, Rusiya isə milli maraqları çərçivəsində bu prosesdə iştirak edir. Moskvanın satdığı silahların heç biri Ermənistana qarşı hücumda istifadə olunmayıb. Lakin zərurət yaranarsa, Bakı bütün imkanlarından istifadə edərək müdafiə olunacaq və düşmənin layiqli cavabını verəcək.

Bunları erməni apostol kilsəsi, erməni diasporu, siyasi elita, ideoloqlar və "vətənpərvərlər" dərk etmək iqtidarında deyil. Onlara elə gəlir ki, işğalçı ola-ola dünya ictimaiyyəti Azərbaycanı aqressor kimi tanımalıdır. İrəvan gülünc formada hesab edir ki, bütün Qərb ölkələri və Rusiya Azərbaycana təzyiq etməlidir ki, işğal faktı ilə barışsın və ermənilərə Cənubi Qafqazda ikinci bir qondarma dövlət yaratmağa imkan versin.

Ancaq bu, heç zaman olmayacaq və hətta ermənilər işğal etdikləri İrəvan quberniyasının ərazisində yaradılmış dövlətin nə dərəcədə hüquqi olduğunu sübut etməyə məcbur qalacaqlar. Tarix və ədalət bunu tələb edir.

Bütün bunlar Azərbaycan diplomatiyasının uğurları fonunda başqa bir məsələyə də öz təsirini göstərir. Sarkisyan rejimi nəzarəti altında olan KİV orqanları vasitəsilə Kremli ittiham edir. Xüsusilə, Soçidə Vladimir Putinin Azərbaycan Prezidenti ilə məsləhətləşmələr aparmasına Ermənistan hakimiyyəti həqiqi mənada əcaib reaksiya verib.

Erməni analitik və ekspert dairəsi biabırçı izah verirlər - Putin guya deyib ki, Azərbaycan Prezidenti ilə görüşmək problemdir!

## Baş tutmayan böhtan: Bakı-Moskva münasibətləri inkişaf etməkdədir

Əslində isə "Sirius" təhsil mərkəzində verilən suala cavabında Rusiya Prezidenti Azərbaycanın dövlət başçısı ilə əsl geosiyasi problemləri müzakirə edəcəyini ifadə edib. Həmin məsələləri Vladimir Putin çox aktual hesab edib və onun regional ilə yanaşı, qlobal miqyas üçün də əhəmiyyətli olduğunu vurğulayıb. Ermənilərin "düşünən" başları isə o dərəcədə sadəlövh və süni izah verməyə çalışırlar ki, onların primitiv təhlil səviyyəsində olduğu qənaəti yaranır. Ən azından Rusiya Prezidentini səviyyəsiz diplomat kimi qələmə vermək cəhdləri heç bir ölçüyə sığmır!

Təbii ki, burada real vəziyyət tamamilə başqa cürdür. V.Putin region üçün aktual olan məsələləri Ermənistan prezidenti ilə deyil, məhz Azərbaycan Prezidenti ilə müzakirə etməyə üstünlük verib. Və o, yanılmayıb. İlham Əliyev uzun illərdir aktiv və konstruktiv fəaliyyəti ilə regional əməkdaşlığa, qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfələr verir. Rəsmi İrəvanın isə təcavüzkarlığına haqq qazandırmaq üçün müxtəlif uydurma işlərdən başqa bir addım atdığını görən yoxdur.

Bunlar Ermənistandakı sosial-siyasi və iqtisadi vəziyyət baxımından nələri ortaya qoyur? Aydın görünür ki, yeni erməni hökuməti də heç bir tutarlı proqram-islahat həyata keçirə bilmir. Ölkədən insanlar kütləvi surətdə köç edirlər. Bu yaxınlarda erməni saytları rayonların birinin kəndindəki demoqrafik və sosial vəziyyət haqqında yazı hazırlamışdı. Həmin yazıda göstərilirdi ki, kənd camaatı kütləvi şəkildə yurdlarını tərk edib, Rusiyaya gedirlər. Boşanmaların sayı sürətlə artır. Təkcə bir kənddə bu rəqəm 10 faiz təşkil edir.

Erməni oğlanları ailələrini dağıdıb, Rusiyada yenidən evlənirlər. Səbəbi ondan ibarətdir ki, onların Ermənistanda iş tapmaları, hüquqlarını qorumaları və normal yaşamaları imkansızdır. Əsas səbəblərdən biri isə onların Azərbaycan ərazisi olan Dağlıq Qarabağdakı işğalçı erməni ordusunda əsgər olmaq istəməməsi ilə bağlıdır.

Ermənistan iqtidarı seçicilərə verdiyi heç bir vədinə əməl edə bilmir. O cümlədən hökumətin səmərəli işləməsi alınmır. Bunun əsas səbəbi kimi isə bir sıra erməni ekspertlər İrəvanın Moskvadan tam asılı olmasını göstərirlər. Belə ki, Ermənistanın iqtisadi və energetik sisteminə tam olaraq Rusiya nəzarət edir. Bu proses nəinki səngiyir, hətta daha da inkişaf edir.

Deyək ki, erməni KİV-də ABŞ-Ermənistan münasibətlərinin aşağı səviyyədə olmasını izah edərkən, Vaşinqtonun heç olmasa müdafiə siyasətində İrəvanın müstəqil olmasını tələb etdiyi yazılır. Lakin görünür, okeanın o tayında da anlaya bilmirlər ki, bu, mümkün deyil. Çünki real olaraq müstəqil Ermənistan mövcud deyil. İndi Rusiyanın süni olaraq qondardığı bir kiçik ölkə var və o, Kremldən idarə olunur. Rusiyanın siyasi dairələri dəfələrlə bəyan ediblər ki, Rusiyasız "Ermənistan" adlanan yer bir heçdir. Vaşinqton bunu anlamırsa, öz günahıdır. Belə bir vəziyyətdə İrəvandan müstəqil addım tələb etmək, sözü küləyə vermək deməkdir.

Bütün bu reallıqlar onu təsdiqləyir ki, Ermənistanın müstəqil dövlət olması hələ mümkün deyil. Ermənistanla deyil, onun ağaları ilə danışmaq lazımdır. Erməni KİV-in saldığı hay-küy isə daxili auditoriya üçündür. Bununla sadə vətəndaşları aldadır və onlardan həqiqətləri gizlədirlər.

Lakin tarix göstərir ki, belə vəziyyət uzun müddət davam etmir. Haradasa qırılma nöqtəsi vardır. Ermənistan da bir dövlət kimi yaxın perspektivdə ciddi böhrana düşəcək. İndi mövcud olan problemlər birbaşa dövlətçiliyin taleyinə təsir edəcək. Bu acı taleyi yaşamamaq üçün yeganə çıxış yolu erməni silahlı quldur dəstələrinin işğal etdikləri Azərbaycan ərazisini tərk etməsidir.

Eyni zamanda, erməni siyasətçiləri dialoq mədəniyyətinə yiyələnməlidirlər. Onların kobud, yöndəmsiz və radikal ritorikaları Ermənistanın quyusunu daha dərindən qazmaqdan başqa heç nəyə xidmət etmir. Qəribədir ki, erməni xalqı qəflət yuxusundan ayılmaq istəmir. Bununla da o özünü bütövlükdə fəlakətə sürükləyir. Ancaq misal var - "özü yıxılan ağlamaz"!

**Newtimes.az**

*Uğurlu gələcək, uğurlu yol insanın özündən asılıdır. Əgər qorxusuz və sağlam ruhdasansa, yolun uğurlu olacaq - uğur qazanacaqsan.*

Düşüncələr

# Sizə inanırıq, əsgər qardaşım



Səngər - əsgərin qorxu bilmədən, soyuqda da, istidə də, gecə də, gündüz də əsgərlərin mehrləşdiyi, sipər bildiyi ərazidi. Əsgərlər üçün Vətən səngərdən başlanır .

Vətəni qoruyan əsgərlərimiz təxribat törədən düşmənin həmlələrinin, hücumlarının qarşısını mərdliklə alır - döyüşür. Döyüş - kiminin müəyyən yaşını qeyd etdiyi, kiminin zamanının əbədi donduğu, ölümsüzləşdiyi yer. Bəzən iki dostun vidalaşması, "Vətən sağ olsun!" - deyərək son nəfəs alması.

Azərbaycan əsgəri qaranlıq gecəni deyil, aydın səhəri düşünür.

Əsgər - ailəsindən uzaq olsa da, Vətənə daha yaxın olan, istəklərini, arzularını bir kənara atıb daha irəlini düşünən igid oğul. Əsgər - xilaskardır. Hər bir uşağın gözündə böyüyən, cavanların, yaşlıların ümid bəslədiyi, duruşuyla qəlbləri sakitləşdirən oğul. Hər bir əsgər səngərlərin öz yatağı qədər rahat olmadığını bilir, ancaq Vətən sevgisi hər bir çətinlikləri yüngülləşdirir. Əsgər - bir ailənin deyil, bütün xalqın oğlu, igidi, qəhrəmanıdır. Əməlləri ilə gözümüzdə böyüyəndir.

Bir xalqın şəhidi yoxdursa, həmin torpağı işğal hədələyəcək. Gəzdiyimiz torpağı, görülən gözəllikləri qorumaq ən müqəddəs borcumuzdur. Xalqın fəxri - azadlıq yolunda canından keçənlər - şəhidlərdir. Sənin qələbənə inanırıq Azərbaycan əsgəri!

Ordumuzun əsgərləri uğur yolunun yolçularıdı. Onlar Vətəni qoruyur, torpaqlarımızı işğaldan onlar azad edəcək...

Azərbaycan əsgərinin qələbə naminə atışır. Qətiyyətlə döyüşür Azərbaycan əsgəri, Ali Baş Komandanına, Vətən sevgisinə güvənir, şəhidliyə də hazırdı - təki Vətənə, Vətən torpağına zərər dəyməsin...

**Hüsniyyə İDRİSOVA**

# Xəbərlər: hadisələr, faktlar

## "İqla" daşınan zenit-raket kompleksinin qida blokunu satmaq istəyən erməni hərbçisi saxlanılıb



İşğal olunmuş ərazilərimizdə yerləşdirilən düşmən ordusunda özbaşınalıq halları artmaqda davam edir. Bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birində daha bir insident baş verib.

"İqla" daşınan zenit-raket kompleksinin qida blokunu oğurlayıb satmaq istəyən əslən yezidi kürdü olan Valodya Sloyan adlı hərbi qulluqçu saxlanılıb.

Ələ keçdiyini görən V.Sloyan kompleksin qida blokunu yararsız hala salmağa nail olub. İlkin araşdırma zamanı blokun xarab olduğunu və təmir etdirmək üçün götürdüyünü deyən V.Sloyan sonradan komandirin tapşırıqlarını yerinə yetirmək üçün pul lazım olduğundan qida blokunu satmaq məcburiyyətində qaldığını bildirib.

Hazırda Xankəndidə yerləşən hərbi istintaq baş idarəsində faktla bağlı araşdırma aparılır.

## İranın şimal-qərbində iki terrorçu zərərsizləşdirilib



İranın şimal-qərbində iki terrorçu zərərsizləşdirilib.

Bu barədə "Tasnim" informasiya agentliyi məlumat yayıb.

İran İslam İnqilabı Keşikçiləri Korpusunun Quru Qoşunları komandanına istinadla yayılan məlumatda bildirilir ki, hərbçilər Qərbi Azərbaycan vilayətində, Türkiyə ilə İran sərhədində terror qruplaşmasının daha 4 üzvünü yaralayıblar.

Terrorçulardan hərbi sənədlər, silah-sursat götürülüb.

## Taliban yaraqlıları Əfqanıstanda 30 dinc sakini öldürüb



Taliban yaraqlıları Əfqanıstanın Sari Pul vilayətində 30 dinc sakini öldürüb.

Vilayətin valisi Məhəmməd Zahir Vəhdət terrorçuların Mirzavlanq rayonuna hücum etdiyini deyib.

O, aralarında qadın və uşaqların da olduğu 30 dinc sakinin öldürüldüyünü bildirib. Vali onlarla ailənin terrorçuların zülmündən qaçaraq, rayon mərkəzinə sığındığını vurğulayıb.

Qeyd edək ki, Taliban ötən gün Mirzavlanqa hücum edərək, rayonu ələ keçirdiyini bildirmişdi.

## Venesuelada hərbi bazanı ələ keçirməyə cəhd göstərilib



Bir qrup şəxs Venesuelada hərbi bazanı ələ keçirməyə cəhd göstərib, həbs olunanlar var.

Venesuelada hakim Vahid Sosialist Partiyasının sədr müavini Dosdado Kabelo "Twitter" sosial şəbəkəsindəki səhifəsində Paramakay hərbi bazasına hücum edən bir neçə terrorçunun saxlanıldığını və hazırda hərbi bazanın hökumətin tam nəzarətində olduğunu yazıb.

## İraqın şiə silahlıları Suriya ilə sərhəddə ABŞ-ın artilleriya zərbələrinə məruz qalıb



Şiələrin hökumətə yaxın "Əl-Həşd əş-Şəabi" qruplaşmasına daxil olan "Kataib Seyid əş-Şuhəda" hərbi birləşməsi ABŞ-ın zərbələrinə məruz qalıb. Hadisə İraq ərazisində Suriya ilə sərhəddə baş verib.

Məlumata əsasən, ABŞ silahlılarının mövqelərini güclü artilleriya atəşinə tutub. Nəticədə çox sayda ölən və yaralananların olduğu bildirilir. Qruplaşma insidentin araşdırılması üçün hökumətə müraciət edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Çirkli su Ermənistan ordusunda yoluxucu xəstəliklərin yayılmasına səbəb olub



*Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində yerləşən Ermənistan ordusunun ən böyük problemlərindən biri də əsgərlərin içməli su ilə təminatındakı acınacaqlı vəziyyətdir.*

AZƏRTAC xəbər verir ki, bu günlərdə Madagizdəki hərbi hissələrdən birinin cəbhə xəttindəki bölmələrinə içməli su çatışmazlığından çirkab sulardan istifadə edən əsgərlər arasında yoluxucu xəstəliklər yayılıb.

Karantin tədbirlərinin görülməsinə baxmayaraq, Aram Arekelyan adlı hərbi qulluqçunun səhhətində ciddi problemlər yaranıb və o, ağır vəziyyətdə Xankəndidəki hərbi hospitala yerləşdirilib.

Hadisə ictimaiyyətdən gizlədilsə də Dağlıq Qarabağdakı qondarma rejimin "kənd təsərrüfatı naziri" Aram Mxoyan, "ətraf mühit və təbii ehtiyatlar üzrə idarə rəisinin birinci müavini" Artur Qabrielyan və "yerli hərbi komandanlığın" iştirakı ilə hərbi hissələrin içməli su ilə təminatına dair fövqəladə toplantı keçirilib.

Hərbi ənənələr, yeniliklər

# Səyyar informasiya mərkəzi

Müxtəlif ölkələrin silahlı qüvvələri nəinki döyüş əməliyyatları zamanı, adi iş prosesində də həmişə informasiyaların toplanmasına və onların emalına ehtiyac duyublar. Şəxsi heyət öz ölkəsində və dünyada baş verən hadisələr haqqında məlumat almaq hüququna malikdir və asudə vaxtlarında bundan faydalanmalıdır. Məhz bunu nəzərə alaraq Belarus sənayesi səyyar informasiya mərkəzi yaradıb. Hərbi hissələrdə hərbçilər asudə vaxtlarını təmin etmək üçün informasiya vasitələrindən istifadə edirlər. Səhra şəraitində xidmət edən hərbi qulluqçuları vaxtında məlumat alma hüququndan məhrum etmək olmaz. Bu məqsədlə Minsk Elmi-Tədqiqat Cihazqayırma İnstitutunun mütəxəssisləri səhra şəraitində lazımi yerlərə məlumatları çatdırmaq üçün xüsusi maşın hazırlayıb və onun adını "Səyyar İnformasiya mərkəzi-2006" qoyublar.

Səyyar informasiya mərkəzi özündə şassi bazası əsasında hazırlanmış özüyeriyən maşını təsvir edir. Maşın müxtəlif təyinatlı aparatlarla, cihazlarla təchiz edilib. Onun bort cihazlanması radiokanallar üzrə müxtəlif informasiyaları sərbəst şəkildə redaktə etməyə malikdir. Maşın 330 litr at gücündə dizel mühərriki ilə təchiz edilib. Şassisi 5 tona qədər yük qaldırmağa qadirdir, bu da müxtəlif təyinatlı texniki nümunələrin quraşdırılmasına imkan verir. Səyyar informasiya maşınının şassisi xüsusi aparat dəsti və heyətin işçi yerləri olmaqla furqon-gövdənin quraşdırılması üçün istifadə edilir. Maşında sürücü və sərnişinlər üçün kapotsuz kabinədə xüsusi yer ayrılıb. İnformasiya mərkəzi ön xətdə işləmədiyindən zirehlə təchiz edilməyib. Lazımi avadanlıqları və cihazları yerləşdirmək üçün konteyner tipli kuzov-furqondan istifadə edilir və onun kənarları bir neçə qatlı örtüklə möhkəmləndirilib. Maşının gövdəsi düzbucaq şəklindədir. Furqona sağ tərəfdəki qapıdan daxil olmaq olur və bortunun dörd pəncərəsi vardır. Furqonun daxili sahəsi 11,5 kv.m, həcmi isə 25 kub metrdir. Burada işçi qüvvəsi üçün hər cür şərait yaradılıb. Hətta burada məxaric olunan materiallar da qorunub saxlanıla bilər. Pəncərələri işıq maskalanması üçün hərəkətli pərdələrlə təchiz edilib. İnformasiya mərkəzinin heyəti müxtəlif şəraitdə işləyə bilər. Maşın həyatı təmin edən bütün cihazlanma ilə təchiz edilib. Müxtəlif tapşırıqları yerinə yetirmək üçün mərkəz kompyuter və digər aparatlarla da təmin edilib.

Şəxsi heyətin tele-radio xidmətini yerinə yetirmək üçün onun cihazlanması müxtəlif formatda peyk və efir televiziyasından məlumatları qəbul etməyə imkan verir. Həmin məlumatlar burada yazılaraq saxlanılır. Siqnalların qəbul edilməsi üçün daşınan portativ antena qurğularından istifadə edilir. Operatorun şəkillərlə, poliqrafiya və video yazılarla işləməsi üçün lazımi şərait yaradılıb. O burada foto və video-çəkiliş aparır, videonu montaj edir və fotoşəkillərin emalını, həmçinin poliqrafiya məhsullarının maketini yaradır. Öz şəxsi heyəti və döyüş texnikası ilə beynalxalq tədbirlərə də cəlb edilərək mütəxəssislərlə birlikdə video-çəkilişlər aparır, qəzet nüsxələri nəşr edilərək döyüşçülərə paylanılır. Ən üstün cəhəti odur ki, informasiya mərkəzi hərbi hissə ərazisində, kənarda qoşunların cəmləşdiyi yerdə müxtəlif vəzifələri yerinə yetirir. Mərkəzin geniş imkanları nəzərə alınaraq onun seriyalarla istehsalı təklif olunub və bu da zabit və əsgərlərə vaxtlı-vaxtında dünyada və ölkəsində baş verən məlumatların çatdırılmasına imkan yaradacaq.



**Hazırladı:**
**Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# "Dəniz Kuboku-2017" müsabiqəsinin iştirakçıları arasında voleybol yarışı təşkil olunub





"Dəniz Kuboku-2017" müsabiqəsində iştirak edən Azərbaycan HDQ-nin "G-124" gözətçi gəmisi, Rusiya HDD-nın "Qrad Sviyajsk" kiçik raket gəmisi, İran HDQ-nin "Cövşən" raket kateri və Qazaxıstan HDQ-nin "Sarıarka" raket-artilleriya gəmisinin ekipajları bu gün voleybol üzrə yoldaşlıq görüşlərində güclərini sınayıblar.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman meydançasında təşkil olunan oyunlar olimpiya sistemi üzrə keçirilib.

Rusiya və İran komandaları arasında keçirilən ilk görüşdə İran dənizçiləri uğur qazanıb.

Azərbaycan və Qazaxıstan komandaları arasında keçirilən görüşdə isə meydan sahibləri qalib gəliblər.

Gərgin final oyununda Azərbaycan dənizçiləri İran komandasına qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər.

Üçüncü yer uğrunda keçirilən görüşdə Rusiya dənizçiləri Qazaxıstan komandasından üstün olublar.

Sonda komandalara medallar, fəxri fərmanlar, hədiyyələr və kuboklar təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ovqat*

# "Gəlirəm, ata!"

Atasız böyümüşdü. Çəkdiyi sıxıntıları kimsə hiss etməzdi. Nə çəkirdi, ürəyində çəkirdi. Bir dəfə nənəsindən soruşmuşdu ki, atam hardadı? Nənəsi qəfil sualdan, həm də həmişə ehtiyatlandığı sualdan tutulmuşdu. Özünü ələ alıb madar nəvəsinin saçlarını oxşamışdı. "Gələcək..." - demişdi...

Atası gəlməyəcəkdi - şəhid olmuşdu...

Texniki Universitetdə təhsil almışdı. Mühəndis olacaqdı. Magistraturada oxuyurdu. Təhsilini davam etdirməsi üçün Universitet onu Almaniyaya göndərmək istəmişdi. Getməmişdi. "Nənəmə, anama köməyim lazımdı..." - demişdi.

Sonuncu kursda oxuyanda anası rəhmətə getmişdi. Digərləri kimi o da şəhərdə qalıb işləyə bilərdi - mükəmməl təhsili, savadı, geniş erudisiyası, təfəkkürü bəyənilirdi. Kəndə qayıtmışdı. Təsərrüfatlarıyla məşğul olurdu; dolanışıqlarını əkin-biçinlə ödəyirdi. Ev-eşiyə də "əl gəzdirmişdi".

Kənddə ağzına gücü çatmayanların qınağını eşidirdi: "Bundan ötrümü oxuyurdun?". Yöndəmsiz suala təmkinlə cavab verirdi. "Hə" - deyirdi. "Ata yurdumun işığına dönmək üçün oxuyurdum..." - deyirdi...

Gün qüruba meyllənmişdi.

Pay torpaqlarının sənədlərini götürmək üçün evlərinə tələsirdi.

Yağış kəsmişdi. Kəndin yollarında qəribə bir səssizlik vardı - nə gələn vardı, nə də gedən. Hansı duyğuların təsiriylə göy üzünə baxdı. Göyqurşağını görüncə ürəyi telləndi. Ötənlər yadına düşmüşdü - uşaq olanda o da inanırdı ki, göyqurşağının altından keçənlər xoşbəxt olur. Xoşbəxtliyə tələsirdilər - neçə dəfə həvəsiyib göyqurşağına sarı qaçmaq istəmişdilər. Böyük uşaqların tənəli baxışlarından sıxılıb fikirlərindən daşınmışdılar. İllər keçəndən sonra göyqurşağının altından yox, körpüdən keçib evlərinə çatmışdı...





Nənəsi həyətdə narahatlıqla gəzişirdi. Onu indiyəcən bir yerdə rahatlıq tapan, dincələn görməmişdi. Narahat olanda həyət boyu o baş-bu başa vurnuxur, fikrini dağıtmağa çalışırdı. "Nə olub görəsən?" - gümanı min yerə qaçdı. Özünü dərk elədiyi vaxtlardan nənəsini belə görməmişdi; təmkinli, səbirli, sözünün yerini bilən nənəydi nənəsi. Yaxınlaşanacan səbri çatmadı:

- Nə olub, ay nənə? - səbirsizliklə soruşdu.

- Adına çağırış kağızı gəlib, ay bala. Əsgər getməlisən.

Ürəyi döyündü. Sevindi. Neçə ay idi gecəni bu günün həsrətiylə səhər eləyirdi. Gülümsündü:

- Balam böyüyəcək, - deyirdin, atasının qisasını alacaq, - deyirdin. Böyümüşəm, qisasın vaxtı çatıb. Sevinməlisən, ay nənə, sevinməlisən! - qolları nənəsinin kürəyində çarpazlaşdı...

... Səfərbərlik və hərbi xidmətə çağırış üzrə rayon şöbəsi rəisinin qəbul otağında gözləyirdi. Narahatıydı. Ona elə gəlirdi ki, rəisin qəbulundakı adam ləngiyir... "İnsafsızlıqdı..." - pıçıltısını heç kim eşitmədi...

- Eşidirəm, - rəis ötkəmliklə dilləndi. Axşamdan bəri nədən başlayacağını, nə deyəcəyini çox götür-qoy etsə də qəti qərara gələ bilməmişdi.

- Rəis, - dedi. - Xahiş edirəm məni Murovdağa göndərəsiniz. Orda xidmət etmək istəyirəm.

Çağırışçının xahişi rəisə qəribə göründü; ondan belə xahiş edən olmurdu. Məqsədsiz-filansız masanın üstündəki kağızları götürdü, o üzünə-bu üzünə göz gəzdirdi, sonra davamlı baxışları çağırışçıya dikildi:

- Niyə məhz Murovdağa?

- Atam Murovdağda xidmət edirmiş. İkinci Kəlbəcər əməliyyatında döyüşə-döyüşə Qamışlı körpüsünün hüdudlarınacan irəliləyiblər. Qəflətən mühasirəyə düşüblər. Mühasirəni yarmaq üçün komandirin əmriylə döyüşüblər. Atam həlak olub. Sahib adlı zabit atamı mağara-zağa misallı daşlığa çəkib ki, düşmən əlinə keçməsin, imkan olanda dəfn edərlər.

Qəhərlənsə də özünü ələ ala bildi:

- Murovdağ Kəlbəcərə yaxındı, rəis. Ermənilər danışıqları uzadır. Torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Döyüşəcək əsgərlərin sırasında olmaq üçün Murovda xidmət etmək istəyirəm, atamı həlak olduğu yerdə dəfn etmək istəyirəm. İyirmi dörd ildən sonra. Atamın ruhuna orda gözaydınlığı verəcəm. Şuşaya atasının qisasını almış əsgər kimi gedəcəm!.. İndiyəcən heç yerdə şəhid oğluyam deməmişəm. Orda deyəcəm. Qürurla deyəcəm: Mən şəhid oğluyam!

Rəis heç nə deyə bilmədi. Sevgilərlə, səmimiliklə dinlədiyi kəlmələr ürəyini tellendirmişdi. Son kəlmələr onun iç dünyasını nurlandırmışdı: "Atanın şəhidliyi oğulun qəhrəmanlığının başlanğıcıdı..." - düşündü. "Mən şəhid olsaydım oğlum belə edərdimi?" - düşündü. Canından bir üşütmə keçdi...

Sevinirdi. İki gündən sonra hərbi xidmətə gedəcəkdi. Murovdağda xidmət edəcəkdi. Nənəsi onun arxasınca aydınlıq suyu atacaqdı.

Səfərbərlik və hərbi xidmətə çağırış üzrə rayon şöbəsinin qarşısındakı qələbəliyi keçib küçəyə çıxdı. "Gəlirəm, ata!" - pıçıldadı.

Sərin-sərin meh əsirdi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Sözün işığında



*Zaur Bağırov "N" hərbi hissəsində xidmət edir. Gizirdir. Bakı Slavyan Universitetinin "Yaradıcılıq" fakültəsində təhsil alıb. "Dünya Türk Yazarlar Birliyi"nin, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Üç kitabı nəşr olunub. Şeirlərində yeni nəfəs, sözə yeni münasibət hiss olunur. Zaur Sahil imzası ilə yazdığı şeirlər bədii dəyəri ilə seçilir. Gizir Zaur Bağırovun iki şeirini dərc edirik.*

**"Azərbaycan Ordusu"**

## Əsgər

Hər əsgərin yerişi
Oxunmamış şeirdi.
Baxışlar səngərə
Söykənikli sehrdi.

Misra-misra görünür
Heca vəzni içində.
Ürək kimi döyünür
Əsgər əzmi - içində.

Bürkülərdə təntimir,
Soyuqlarda üşümür.
"İrəli!" - deyib gedir,
Geri dönmək düşünmür...

## Qəlbimdəsən....

Gözün gözlərimin rənginə hopub,
Rəngi gözlərimin rəngi qədərdi.
Sənin sözlərinin hər çağırışı,
Harayı "Ruhani", "Cəngi" qədərdi.

Havadan asılan bulud kimisən,
Buluddan süzülən bulaqsan, gülüm.
Sənə əlim çatmır...
Qəlbimə - yaxın,
Hələ gözlərimdən uzaqsan, gülüm...

Gizir Əliyev Elvin Şaban oğluna 2013-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 327 Nüsxə 4600 |